QANUN № 07 (381), 2026, s. 181-188

**Axundov Fuad Natiq oğlu,**
Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət prosesi kafedrasının doktorantı
E-mail: fuad.akhundov@mail.ru

**UOT 343.1**
**DOI: https://doi.org/10.30546/2218-9130.007.2026.9232**

# HAKİMİN MÜSTƏQİLLİYİNƏ DAİR ƏSAS AVROPA STANDARTLARI

***Açar sözlər:*** *hakim, müstəqillik, standartlar, tələblər, Avropa, ədalətli məhkəmə araşdırması, presedent hüququ.*

***Ключевые слова:*** *судья, независимость, стандарты, требования, Европа, справедливое судебное разбирательство, прецедентное право.*

***Keywords:*** *judge, independence, standards, requirements, Europe, fair trial, case law.*

İnsan hüquqlarına dair Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci hissəsində təsbit edilmiş hüquqlar sırasında müstəqil məhkəmə tərəfindən mühakimə olunmaq hüququ da yer alır. Odur ki, Avropa Məhkəməsi Konvensiyanın 6-cı maddəsində təsbit edilmiş müddəaların təfsirinə dair presedent hüququnu formalaşdırarkən ədalətli məhkəmə araşdırması hüququ kontekstində məhkəmənin müstəqil olması tələbinin mahiyyətini, məhkəmənin müstəqil olub-olmamasının qiymətləndirilməsi zamanı rəhbər tutulmalı olan meyarları və məhkəmənin müstəqilliyi ilə onun qərəzsizliyi arasındakı qarşılıqlı əlaqənin xarakterini izah etməli olmuşdur. Belə ki, Avropa Məhkəməsinin hüquqi mövqeyinə görə, məhkəmənin müstəqil olması tələbi ilə onun obyektiv cəhətdən qərəzsiz olması tələbi bir-biri ilə o qədər sıx əlaqəlidir ki, məhkəmələrin müstəqilliyi qiymətləndirilərkən hər iki tələbə, yəni müstəqillik və qərəzsizlik tələblərinə birlikdə baxmaq zəruridir [18]. Avropa Məhkəməsi belə hesab edir ki, əgər ədalət mühakiməsinin həyata keçirilməsində peşəkar hakimlərlə yanaşı, peşəkar olmayan hakimlər də, məsələn, andlı iclasçılar və s. də iştirak edərlərsə, hakimlərə yönələn müstəqillik və qərəzsizlik tələbləri qeyri-peşəkar hakimlərə də tətbiq edilməlidir [22].

Avropa Məhkəməsinin presedent hüququnda məhkəmənin müstəqilliyi ilk növbədə hakimiyyətlərin bölgüsü prinsipi kontekstindən dəyərləndirilir və vurğulanır ki, məhkəmənin müstəqilliyi işin tərəflərinə münasibətdə müstəqilliyi, yəni məhkəmənin tərəflərin heç birindən asılı olmamasını ehtiva etdiyi kimi, məhkəmə funksiyalarının yerinə yetirilməsi zamanı məhkəmənin (hakimin) qanunvericilik və icra hakimiyyətlərinə münasibətdə də müstəqilliyini, yəni hakimiyyətin digər qollarından da asılı olmamasını ehtiva edir [27].

Ötən zaman ərzində Avropa Məhkəməsinin presedent hüququnda məhkəmənin müstəqil olub-olmamasının qiymətləndirilməsi üçün dörd əsas meyar formalaşdırılmışdır.

*Birinci meyara* əsasən, hakimlərin vəzifəyə təyin edilməsi, eləcə də işin konkret məhkəməyə, yaxud konkret hakimə həvalə edilməsi qaydası onların müstəqilliyinə xələl gətirməməlidir. Bununla belə, qeyd edilməlidir ki, hakimlərin vəzifəyə təyin edilməsi prosedurlarında qanunverici orqanın, yaxud icra hakimiyyəti orqanının iştirakı *ipso facto* həmin hakimlərin müstəqilliyini şübhə altına almağa əsas vermir. Belə ki, hakimlər konkret işlər üzrə ədalət

mühakiməsinin həyata keçirilməsi ilə əlaqədar öz prosessual funksiyalarını hakimiyyətin digər iki qolundan asılı olmadan realizə edə bilirlərsə, onların vəzifəyə təyin edilməsi zamanı qanunvericilik, yaxud icra hakimiyyətinin müvafiq prosedurlarda iştirak etməsi əhəmiyyət kəsb etmir [17; 21; 26].

*İkinci meyara* əsasən, hakimlərin səlahiyyət müddəti onların öz müstəqilliyini qoruyub saxlamaları üçün kifayət etməlidir. Avropa Məhkəməsi qəbul edir ki, hakimlərin vəzifədə olma müddətlərinin minimal həddini müəyyən etmək mümkün deyildir. Bununla belə, Avropa Məhkəməsi qeyd edir ki, öz prosessual funksiyalarını müstəqil şəkildə həyata keçirə bilmələri üçün hakimlər vəzifədə olduqları müddət ərzində işdən kənarlaşdırılmamaq təminatına malik olmalıdırlar [12].

*Üçüncü meyara* əsasən, hakimlər hər cür kənar qanunsuz təsirdən qorunmuş olmalıdır. Avropa Məhkəməsinin mövqeyi ondan ibarətdir ki, hakimin müstəqil olması üçün o həm sistemdaxili, yəni ona hakim həmkarları, daxil olduğu məhkəmə tərkibinə sədrlik edən, mənsub olduğu kollegiyanın sədri, vəzifə tutduğu məhkəmənin sədri, yuxarı instansiya məhkəmələrinin hakimləri və vəzifəli şəxsləri, məhkəmə hakimiyyətinin özünüidarəetmə funksiyalarını həyata keçirən orqanların vəzifəli şəxsləri tərəfindən, həm də sistemdənkənar, yəni hakimiyyətin digər qollarına mənsub olan vəzifəli şəxslər, yaxud hakimlə peşə fəaliyyəti ilə əlaqədar olmayan münasibətlərə malik digər şəxslər tərəfindən göstərilə biləcək qanunsuz təsirlərdən – göstərişlərin verilməsindən, təzyiq göstərilməsindən və s. qorunmuş olmalıdır. Hakimlərin müstəqil olması üçün onların inzibati cəhətdən tabe olduqları vəzifəli şəxslərə münasibətdə prosessual cəhətdən müstəqilliklərini təmin edən kifayət qədər vasitələrin mövcudluğu xüsusi əhəmiyyət daşıyır. Belə vasitələrin mövcud olmaması məhkəmənin qeyri-müstəqil və qərəzli olmasına dair şübhələri gücləndirə bilər [14; 26; 28].

*Dördüncü meyara* əsasən, hakimin (məhkəmənin) müstəqil olması zahirən təzahür etməli, hakim (məhkəmə) ictimaiyyətin gözündə də müstəqil olmalıdır. Bu meyara zahiri müstəqillik görüntüsü meyarı da demək mümkündür. Zahiri müstəqillik görüntüsü meyarı onu tələb edir ki, kənar müşahidəçi məhkəmə prosesini izlədikdə, onda hakimin (məhkəmənin) qeyri-müstəqil olmasına dair narahatlıq yaranmasın. Məhkəmənin müstəqil olması fikri cəmiyyətdə və mühakimə olunan şəxsdə məhkəməyə olan etimaddan irəli gəlməlidir. Avropa Məhkəməsi qəbul edir ki, mühakimə olunan şəxsin məhkəməyə etimad göstərməməsi *ipso facto* məhkəmənin müstəqil olmaması anlamına gəlmir, lakin bu etimadsızlıq obyektiv olaraq əsaslandırıla bildiyində məhkəmənin qeyri-müstəqilliyinə dair şübhə güclənə bilər [13; 30].

Artıq qeyd edildiyi kimi, Avropa Məhkəməsi, bir qayda olaraq, məhkəmənin müstəqilliyi tələbini, onun qərəzsizliyi tələbi ilə, xüsusilə də məhkəmənin obyektiv qərəzsizliyi tələbi ilə bir arada gözdən keçirir. Avropa Məhkəməsinin mövqeyinə görə, məhkəmənin qərəzsizliyi deyildikdə, onun tərəfsiz (tərəflərdən heç birinin maraqları ilə bağlı olmaması) və obyektiv (işin nəticəsində şəxsən maraqlı olmaması) olması başa düşülür. Avropa Məhkəməsi hesab edir ki, məhkəmənin qərəzsizliyi müxtəlif meyarlar əsasında yoxlanıla bilər. Bu meyarlar obyektiv və subyektiv meyarlardır. Lakin nəzərə alınmalıdır ki, hər bir iş üzrə hansı meyar əsasında qiymətləndirilmənin aparılmalı olması həmin işin konkret hallarından asılıdır [19; 24; 29].

Hakimin qərəzsizliyinin və dolayısı ilə müstəqilliyinin subyektiv meyar əsasında qiymətləndirilməsi zamanı hakimin konkret iş üzrə şəxsi qərəzdən və ya tərəfkeşlikdən azad olması prezumpsiyasından çıxış edilir və bu prezumpsiyanın təkzib edilməsi, yəni hakimin işdə şəxsi

qərəzinin və ya tərəfkeşliyinin mövcudluğunu təsdiq edən sübutlar təqdim edilməlidir. Bununla belə, Avropa Məhkəməsi özü də etiraf edir ki, hakimin qərəzsizliyinin məhz subyektiv meyar əsasında yoxlanılması olduqca çətindir, çünki hakimin işdə şəxsən qərəzli olmasının sübutlarını təqdim etmək də çətindir. Odur ki, hakimin qərəzsizliyinin obyektiv meyarlar əsasında yoxlanılması imkanları daha genişdir [15; 20; 24].

Avropa Məhkəməsinin presedent hüququna görə, məhkəmənin qərəzsizliyinin obyektiv meyarlar əsasında qiymətləndirilməsi zamanı şəxsi və funksional xarakterli situasiyalar nəzərə alınmalıdır.

Şəxsi xarakterli situasiyalar o zaman yaranır ki, işə baxan hakim işin mahiyyəti üzrə baxılmasından əvvəl işin tərəflərinə, xüsusilə də, söhbət cinayət prosesindən gedirsə, müdafiə tərəfi barəsində mənfi fikirlər bildirmiş olur. Məsələn, *Buscemi v. Italy* işində olduğu kimi, hakim işə baxmamışdan əvvəl təqsirləndirilən şəxs barədə mənfi qənaətdə olmasına dəlalət edən ifadələr işlətməməli [11], yaxud *Lavents v. Latvia* işində olduğu kimi, hakim təqsirləndirilən şəxsin ictimai qınağına qoşulmamalı, onun öz təqsirini etiraf etməli olması barədə fikirlər bildirməməlidir [25] və s.

Funksional xarakterli situasiyalar isə o zaman yaranır ki, işə mahiyyəti üzrə baxan hakim daha əvvəl həmin iş üzrə başqa prosessual funksiyaların həyata keçirilməsi ilə əlaqədar qərar qəbul etmiş olsun. Bununla belə, Avropa Məhkəməsi xüsusi vurğulayır ki, işə mahiyyəti üzrə baxan məhkəmənin məhkəməyəqədər icraatla bağlı müxtəlif qərarlar qəbul etməsi, hətta təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbirinin seçilməsi haqqında qərar qəbul etməsi *ipso facto* həmin hakimin qərəzli olması anlamına gəlmir [31]. Eynilə, hakimin eyni bir təqsirləndirilən şəxs barəsində tamamilə başqa bir cinayət işi üzrə ittiham hökmü çıxarmış olması, həmin hakimin həmin təqsirləndirilən şəxs barəsində növbəti cinayət işinə baxarkən qərəzli olacağını iddia etmək üçün əsas vermir [23].

Bəzən hakimin qərəzsizliyi məsələsi bilavasitə onun özü ilə deyil, onun ailə üzvləri və yaxın qohumlarının işin nəticəsində maraqlı olmaları ilə əlaqələndirilə bilər. Məsələn, Avropa Məhkəməsinin təcrübəsindən *Dorozhko & Pozharskiy v. Estonia* işi üzrə məhkəmə iclasına sədrlik edən hakimin əri təqsirləndirilən şəxsin barəsində cinayət işi üzrə ibtidai istintaqı aparmış istintaq qrupunun rəhbəri olmuşdur, Avropa Məhkəməsi bu halda hakimin qərəzsizliyinə dair şübhələrin əsaslı olması qənaətinə gəlmişdir [16].

Hesab edirik ki, hakimin müstəqilliyinə dair Avropa standartlarından bəhs edərkən, Avropa Məhkəməsinin müvafiq presedent hüququ ilə yanaşı, CCJE-nin hakimlərin müstəqilliyi ilə bağlı məsələlərə münasibət bildirilmiş rəylərinin də xülasəsini vermək yerinə düşər.

Orijinalda *Consultative Council of European Judges* (bundan sonra – CCJE) adlanan Avropa Hakimlərinin Məşvərətçi Şurası hakimlərin müstəqilliyi, qərəzsizliyi və səriştəsi ilə əlaqəli məsələlərdə Avropa Şurasının məsləhətçi funksiyaya malikdir. O, beynəlxalq təşkilat daxilində yalnız hakimlərdən ibarət olan yeganə qurumdur və bu baxımdan, Avropada və dünyada bir bənzəri yoxdur. Onun əsas vəzifəsi, üzv dövlətlərdə hakimlərin rolunu gücləndirmək üçün Avropa Şurasının Nazirlər Komitəsi tərəfindən 07 fevral 2001-ci il tarixində qəbul edilmiş Avropadakı Hakimlər üçün Qlobal Fəaliyyət Planının həyata keçirilməsinə töhfə verməkdir. O, Hakimlərin müstəqilliyi, qərəzsizliyi və səriştəsi ilə bağlı ümumi məsələlər üzrə məsləhət funksiyasına malikdir. Məşvərətçi (məsləhət verən) bir qurum olduğu üçün CCJE Avropa Şurasının üzv dövlətlərində ədalət mühakiməsinin həyata keçirilməsi zamanı rəhbər tutulmalı olan standartlar barədə mövqeyini öz rəylərində ifadə edir və bu rəyləri Avropa Şurasının Nazirlər Komitəsinə təqdim edir [1, s. 79-80].

Hakimlərin müstəqilliyi ideyası CCJE-nin bütün rəylərində əsas leytmotivi təşkil etsə də, onların bəzilərini bu sahədə xüsusi qeyd etmək mümkündür. Belə ki, CCJE-nin "Məhkəmələrin müstəqilliyinə və hakimlərin dəyişilməzliyinə dair standartlar haqqında" 23 noyabr 2001-ci il tarixli, 1 (2001) saylı Rəyi həm CCJE-nin ümumiyyətlə birinci, həm də bilavasitə hakimlərin müstəqilliyinə həsr edilmiş ilk rəyi olmaqla, məhkəmə hakimiyyətinin müstəqilliyinə dair əsas standartları özündə əks etdirmişdir. Həmin Rəydə göstərilmişdir ki, məhkəmə hakimiyyətinin müstəqilliyi hüququn aliliyi və ədalətli məhkəmə araşdırması üçün əsas zəmini təşkil edir. Hakimlərin müstəqil olması onların şəxsi maraqlarına xidmət edən preroqativ və ya imtiyaz kimi çıxış etmir, hüququn aliliyinin və ədalətin təmin edilməsini gözləyən şəxslərin maraqlarına xidmət edir. Məhkəmə hakimiyyətinin müstəqilliyi həm bütövlükdə cəmiyyətə münasibətdə, həm də hakimlər tərəfindən həll edilən hüquqi mübahisələrin hər iki tərəfinə münasibətdə mövcud olmalıdır. Müasir demokratik dövlətdə məhkəmə hakimiyyəti üç əsas və bərabər hakimiyyət qolundan biri kimi çıxış edir. Məhkəmə hakimiyyəti həm icra hakimiyyətinin öz hərəkətlərinə görə məsuliyyət daşımasını, həm də qanunvericilik hakimiyyəti tərəfindən qəbul edilmiş qanunların yerinə yetirilməsini və onların konstitusiyaya uyğunluğunu təmin edir. Digər hakimiyyət qollarına münasibətdə öz rollarını yerinə yetirə bilməsi üçün məhkəmə hakimiyyəti onlardan müstəqil olmalı, onların arzuolunmaz təsirindən kənarda qalmalıdır. Müstəqillik qərəzsizliyin təminatı qismində çıxış edir. O, hakimin karyerasının demək olar ki bütün aspektləri üçün vacibdir: təlim, təyinat, xidmətdə irəliləmə, intizam məsuliyyətinə cəlb edilmə [2].

CCJE-nin "Demokratik cəmiyyətdə hakimlər və prokurorlar arasında münasibətlər haqqında" 08 dekabr 2009-cu il tarixli, 12 (2009) saylı Rəyində vurğulanır ki, ədalət mühakiməsinin həyata keçirilməsi baxımından hakimin müstəqilliyinə hörmət komponenti, tərəflərin bərabərliyi, prosessual funksiyaların bölgüsü və məhkəmə qərarının məcburi qüvvəsi prinsipləri qədər əhəmiyyətlidir. Hakimlər və dövlət ittihamçıları bir-birini tamamlayan prosessual funksiyalar yerinə yetirsələr də, onların prosessual funksiyaları bir-birindən fərqlənir. Bununla belə, mühakimə icraatının ədalətli, qərəzsiz və səmərəli olması üçün həm hakimlərin, həm də dövlət ittihamçılarının həyata keçirdikləri prosessual funksiyalar böyük əhəmiyyət kəsb edir. Öz vəzifələrini yerinə yetirərkən hakimlər prokurorlardan, prokurorlar da hakimlərdən heç bir asılılıqda olmayıb, tamam müstəqildirlər. Prokurorlarla hakimlər arasındakı münasibətlərdən bəhs edərkən, nəzərə almaq lazımdır ki, bu zaman həm məhkəməyədək icraatda iştirak edən prokurorlar, həm də məhkəmədə iştirak edən prokurorlar nəzərdə tutulur və CCJE-nin 12 saylı Rəyində vurğulanır ki, müstəqillik məsələlərində məhkəməyədək icraatda iştirak edən prokurorlarla məhkəmədəki prokurorlara eyni status tətbiq edilir. Başqa sözlə, hakim məhkəməyədək icraatda iştirak etmiş prokurorun hüquqi mövqeyi ilə bağlı olmadığı kimi, məhkəməyədək icraatda iştirak edən prokuror da öz prosessual funksiyalarının yerinə yetirilməsində hakimdən asılı deyildir (bu yanaşmanı biz, Azərbaycan Respublikasının cinayət prosesində məhkəmə baxışının hədlərinə dair qaydalarda aşkar müşahidə edə bilərik – müəllif) [3].

CCJE-nin "Hakimlər və vəkillər arasındakı münasibətlər haqqında" 15 noyabr 2013-cü il tarixli, 16 (2013) saylı Rəyində də eynilə qeyd edilir ki, öz vəzifələrinin həyata keçirilməsi zamanı hakimlər və vəkillər bir-birindən tamamilə müstəqil olmalıdırlar. Bu müstəqillik hər bir peşə üzrə qəbul edilmiş etik prinsiplərlə də təmin edilməlidir. CCJE hesab edir ki, ədalət mühakiməsinin lazımi qaydada fəaliyyət göstərməsi

üçün qeyd edilən müstəqillik, yəni hakimlərin və vəkillərin bir-birindən asılı olmaması həyati vacib əhəmiyyət kəsb edir. CCJE-nin mövqeyi ondan ibarətdir ki, hakimlər və vəkillər arasında münasibətlər onların ədalət mühakiməsi üçün bir-birinin rolunun əhəmiyyətinin dərk edilməsi, qarşılıqlı hörmət və bir-birinə münasibətdə müstəqillik prinsipləri üzərində qurulmalıdır. Bu anlamda, hakimlər və vəkillər arasındakı qarşılıqlı münasibətlər haqqında həm milli, həm də regional institusional səviyyələrdə dialoqun və fikir mübadiləsinin inkişaf etdirilməsi vacibdir. CCJE həmçinin mühakimə icraatının ədalətli və tez həyata keçirilməsi üçün hakimlərlə vəkillər arasında onların heç birinin müstəqilliyinə xələl gətirməyən əməkdaşlığı da dəstəklədiyini bildirir [4].

CCJE-nin "Hakimlərin işinin qiymətləndirilməsi, ədalət mühakiməsinin keyfiyyəti və hakimlərin müstəqilliyinə hörmət haqqında" 24 oktyabr 2014-cü il tarixli, 17 (2014) saylı Rəyində diqqətə çatdırılır ki, məhkəmə sisteminin müstəqilliyinə müxtəlif amillər xələl gətirə bilər: maliyyə resurslarının çatışmazlığı, hakimlərin ilkin və fəaliyyətdən ayrılmadan həyata keçirilən hazırlığı ilə bağlı problemlər, məhkəmə sisteminin təşkilati problemləri, eləcə də, hakimlərin mümkün mülki və cinayət məsuliyyəti ilə əlaqədar problemlər. Odur ki, hər bir hakimin fəaliyyəti fərdi qaydada qiymətləndirilərkən bu qiymətləndirmə hakimin müstəqilliyinə hörmət prinsipinə tam cavab verməlidir. CCJE qeyd edir ki, hakimin fərdi qiymətləndirilməsi onun vəzifədə irəliləməsi, əmək haqqının artması, vəzifədən kənarlaşdırılması və s. ilə nəticədə bilən hallarda risk yaranır ki, hakim işlərə baxarkən özü tərəfindən faktların və qanunun obyektiv şəkildə təfsir etmək əsaslanmaq əvəzinə onun fəaliyyətini qiymətləndirəcək şəxslərin "bəyənəcəyi" tərzdə davransın. Bu anlamda, hakimlərin fəaliyyətinin qanunvericilik və ya icra hakimiyyəti orqanlarının üzvləri tərəfindən hər hansı formada qiymətləndirilməsi məqsədəuyğun deyil, çünki hakimlərin fəaliyyətinin fərdi qiymətləndirilməsinin yalnız digər hakimlər tərəfindən həyata keçirildiyi hallarda da hakimlərin müstəqilliyi üçün yarana biləcək təhdidləri tam istisna etmək mümkün deyildir [5].

CCJE-nin "Müasir demokratiya şəraitində məhkəmə hakimiyyətinin vəziyyəti və onun hakimiyyətin digər qolları ilə qarşılıqlı əlaqəsi haqqında" 16 oktyabr 2015-ci il tarixli, 18 (2015) saylı Rəyində qeyd edilir ki, demokratik cəmiyyətdə insanların həyatının hüquqi çərçivələrinin müəyyən edilməsi vəzifəsi qanunverici orqanın üzərinə düşür. İcra hakimiyyətinin üzərinə cəmiyyəti qanunverici hakimiyyətin müəyyən etdiyi hüquqi baza əsasında idarə etmək vəzifəsi düşür. Məhkəmə hakimiyyəti isə cəmiyyət üzvləri ilə dövlət arasında, eləcə də cəmiyyət üzvlərinin öz aralarında yaranan hüquqi mübahisələrə dair qərarlar qəbul edir. Məhkəmə orqanları həmçinin hakimiyyət qolları arasındakı münasibətlərə dair qərarlar da qəbul edir. Bütün bunlar hüququn aliliyi prinsipi əsasında həyata keçirilməlidir. Müstəqil və səmərəli məhkəmə sistemi isə hüququn aliliyinin təməl daşıdır. Odur ki, istənilən müstəqil və səmərəli məhkəmə sisteminin məqsədi hüquqi mübahisələrin ədalətlə və qərəzsiz şəkildə həlli yolu ilə ədalətin təmin edilməsini gözləyən şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək olmalıdır. Bu məqsədə çatmaq üçün məhkəmələr hər bir konkret iş üzrə ədalətli prosedurlar çərçivəsində müvafiq faktları müəyyən etməli, qanunu tətbiq etməli və səmərəli hüquqi müdafiə vasitələrini təmin etməlidir [6].

CCJE-nin "Məhkəmələrin müstəqilliyinin dəstəklənməsində hakimlərin assosiasiyalarının rolu haqqında" 06 noyabr 2020-ci il tarixli, 23 (2020) saylı Rəyində göstərilir ki, bütün insanlar kimi, hakimlərin də birləşmək azadlığı mövcuddur. Bununla belə, hakimlər birləşmək azadlığından istifadə edərkən hər zaman öz vəzifələrini

xatırlamalı və onların qeyri-müstəqil, yaxud qərəzli olması təəssüratı yaradan halların yaranmasından çəkinməlidirlər [7].

CCJE-nin "Məhkəmə Şuralarının təkamülü, onların müstəqil və qərəzsiz məhkəmə sistemlərində rolu haqqında" 05 noyabr 2021-ci il tarixli, 24 (2021) saylı Rəyində məhkəmə hakimiyyətinin özünüidarə funksiyasının məhkəmə orqanlarının müstəqilliyi üçün əhəmiyyəti vurğulanır [8].

CCJE-nin "Hakimlərin fikir (söz) azadlığı haqqında" 02 dekabr 2022-ci il tarixli, 25 (2022) saylı Rəyində diqqətə çatdırılır ki, hakimlər ictimaiyyəti məhkəmə hakimiyyətinin müstəqilliyi haqqında məlumatlandırmalı, məhkəmə orqanlarının işi, hakimlərin səlahiyyət və vəzifələri barədə cəmiyyətə məlumat verməlidirlər. Hakimlər ədalət mühakiməsi sisteminin əsaslandığı dəyərlərin real təcrübədə necə işləməsi barədə ictimaiyyətdə təsəvvür yaratmalıdırlar. Bütün bunlar məhkəmə hakimiyyətinin ictimai nüfuzunun artması, insanların məhkəmə hakimiyyətinə inam və etimadının möhkəmlənməsi məqsədi ilə həyata keçirilməlidir [9].

CCJE-nin "Ədalət mühakiməsinin həyata keçirilməsi üçün hakimlərin rifahının vacibliyi haqqında" 14 noyabr 2025-ci il tarixli, 28 (2025) saylı Rəyində isə vurğulanır ki, hakimlər üzərində əhəmiyyətli dərəcədə daxili və xarici təzyiqin mövcudluğu onların müstəqilliyi və qərəzsizliyinə potensial təhdid yaradır. Belə təzyiqlərin mövcudluğu hakimə əsaslandırılmış qərarın qəbul edilməsi üçün zəruri olan sübutların qərəzsiz qiymətləndirilməsində və qanunların obyektiv təfsir edilməsində iştirak etməyə mane ola bilər. Həddən artıq iş yükü, həddən artıq zaman çatışmazlığı və həddən artıq yorğunluq hakimin koqnitiv cəhətdən tükənməsinə (əldən düşməsinə) səbəb ola bilər. Bu isə, öz növbəsində, qəbul edilən məhkəmə qərarlarının keyfiyyətinə, mühakimə icraatının səmərəliliyinə öz mənfi təsirini göstərə bilər [10].

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**

1. Abbasova F.M., Rüstəmzadə A.X., Xəlilov F.Y. Ədalət mühakiməsi hüququ. Dərs vəsaiti. – Bakı: "Raf Poliqraf" MMC, – 2026. – 500 s.

2. CCJE-nin "Məhkəmələrin müstəqilliyinə və hakimlərin dəyişilməzliyinə dair standartlar haqqında" 23 noyabr 2001-ci il tarixli, 1 (2001) saylı Rəyi. [Elektron resurs]/URL:// https://rm.coe.int/488022c411

3. CCJE-nin "Demokratik cəmiyyətdə hakimlər və prokurorlar arasında münasibətlər haqqında" 08 dekabr 2009-cu il tarixli, 12 (2009) saylı Rəyi. [Elektron resurs]/URL: https://rm.coe.int/ccje-2009-op12english/1680a5781e

4. CCJE-nin "Hakimlər və vəkillər arasındakı münasibətlər haqqında" 15 noyabr 2013-cü il tarixli, 16 (2013) saylı Rəyi. [Elektron resurs]/URL: https://rm.coe.int/488022c8cc

5. CCJE-nin "Hakimlərin işinin qiymətləndirilməsi, ədalət mühakiməsinin keyfiyyəti və hakimlərin müstəqilliyinə hörmət haqqında" 24 oktyabr 2014-cü il tarixli, 17 (2014) saylı Rəyi. [Elektron resurs]/URL: https://rm.coe.int/488022c87d

6. CCJE-nin "Müasir demokratiya şəraitində məhkəmə hakimiyyətinin vəziyyəti və onun hakimiyyətin digər qolları ilə qarşılıqlı əlaqəsi haqqında" 16 oktyabr 2015-ci il tarixli, 18 (2015) saylı Rəyi. [Elektron resurs]/URL: https://rm.coe.int/4880152a92

7. CCJE-nin "Məhkəmələrin müstəqilliyinin dəstəklənməsində hakimlərin assosiasiyalarının rolu haqqında" 06 noyabr 2020-ci il tarixli, 23 (2020) saylı Rəyi. [Elektron resurs]/URL: https://rm.coe.int/opinion-23-en-ccje-2020/1680a03d4b

8. CCJE-nin "Məhkəmə Şuralarının təkamülü, onların müstəqil və qərəzsiz məhkəmə sistemlərində rolu haqqında" 05 noyabr 2021-ci il tarixli, 24 (2021) saylı Rəyi // https://rm.coe.int/opinion-no-24-2021-of-the-ccje/1680a47604

9. CCJE-nin "Hakimlərin fikir (söz) azadlığı haqqında" 02 dekabr 2022-ci il tarixli, 25 (2022) saylı Rəyi. [Elektron resurs]/URL: https://rm.coe.int/opinion-no-25-2022-final/1680a973ef%0A%0A

10. CCJE-nin "Ədalət mühakiməsinin həyata keçirilməsi üçün hakimlərin rifahının vacibliyi haqqında" 14 noyabr 2025-ci il tarixli, 28 (2025) saylı Rəyi. [Elektron resurs]/URL: https://rm.coe.int/opinion-no-28-2025-of-the-ccje-published-/4880296bfa

11. Case of Buscemi v. Italy. [Electronic resource] /URL: https://hudoc.echr.coe.int/eng?i=001-58304
12. Case of Campbell & Fell v. The United Kingdom. [Electronic resource] /URL: https://hudoc.echr.coe.int/?i=001-57456
13. Case of Clarke v. The United Kingdom. [Electronic resource] /URL: https://hudoc.echr.coe.int/eng?i=001-70188
14. Case of Daktaras v. Lithuania. [Electronic resource] /URL: https://hudoc.echr.coe.int/?i=001-58855
15. Case of De Cubber v. Belgium. [Electronic resource] /URL: https://hudoc.echr.coe.int/eng?i=001-57465
16. Case of Dorozhko & Pozharskiy v. Estonia. [Electronic resource] /URL: https://hudoc.echr.coe.int/eng?i=001-86052
17. Case of Filippini v. San Marino. [Electronic resource] /URL: https://hudoc.echr.coe.int/eng?i=002-4715
18. Case of Findlay v. The United Kingdom. [Electronic resource] /URL:https://hudoc.echr.coe.int/?i=001-58016
19. Case of Grieves v. The United Kingdom. [Electronic resource] /URL: https://hudoc.echr.coe.int/eng?i=001-61550
20. Case of Hauschildt v. Denmark. [Electronic resource] /URL: https://hudoc.echr.coe.int/?i=001-57500
21. Case of Henryk Urban & Ryszard Urban v. Poland. [Electronic resource] /URL: https://hudoc.echr.coe.int/fre?i=001-101962
22. Case of Holm v. Sweden. [Electronic resource] /URL: https://hudoc.echr.coe.int/?i=001-57851
23. Case of Khodorkovskiy & Lebedev v. Russia.[Electronic resource]/URL:https://hudoc.echr.coe.int/fre?i=001-122697
24. Case of Kyprianou v. Cyprus. [Electronic resource] /URL: https://hudoc.echr.coe.int/eng?i=001-61600
25. Case of Lavents v. Latvia.[Electronic resource] /URL: https://hudoc.echr.coe.int/eng?i=001-60802
26. Case of Moiseyev v. Russia.[Electronic resource] /URL: https://hudoc.echr.coe.int/?i=001-88780
27. Case of Ninn-Hansen v. Denmark.[Electronic resource] /URL: https://hudoc.echr.coe.int/eng?i=001-4583
28. Case of Parlov-Tkalcic v. Croatia. [Electronic resource] /URL: https://hudoc.echr.coe.int/?i=001-96426
29. Case of Piersack v. Belgium. [Electronic resource] /URL: https://hudoc.echr.coe.int/eng?i=001-57557
30. Case of Sahiner v. Turkiye. [Electronic resource] /URL: https://hudoc.echr.coe.int/?i=001-59666
31. Case of Sainte-Marie v. France. [Electronic resource] /URL: https://hudoc.echr.coe.int/eng?i=001-57794

**Ахундов Фуад Натик оглу,**
докторант кафедры уголовного процесса юридического факультета
Бакинского государственного университета

## ОСНОВНЫЕ ЕВРОПЕЙСКИЕ СТАНДАРТЫ ОТНОСИТЕЛЬНО НЕЗАВИСИМОМТИ СУДЬИ

### РЕЗЮМЕ

Статья 6 Европейской конвенции о правах человека гарантирует право на справедливое судебное разбирательство, неотъемлемым элементом которого является требование о рассмотрении дела независимым и беспристрастным судом. Данная норма обязывает государства создавать органы, учрежденные на основании закона, которые свободны от неправомерного влияния исполнительной и законодательной властей, обеспечивая объективность и защиту прав человека. Европейский суд по правам человека разработал четкие критерии для оценки независимости судей в рамках Статьи 6. Эти стандарты включают строгие требования к процедуре назначения судей, продолжительности их полномочий и наличию гарантий против внешнего давления. В статье автор предпринял попытку систематизировать и суммировать избранное прецедентное право Европейского суда по правам человека относительно данного вопроса. Кроме того, автор суммировал соответствующие заключения Консультативного совета Европейских судей в контексте стандартов независимости судебной власти.

**Akhundov Fuad Natig,**
Doctoral student, Department of Criminal Procedure,
Baku State University

**BASIC EUROPEAN STANDARDS ON JUDGE INDEPENDENCE**

**SUMMARY**

Article 6 of the European Convention on Human Rights guarantees the right to a fair trial, an integral element of which is the requirement for an independent and impartial court to consider the case. This rule obliges states to create bodies established by law that are free from unlawful influence of the executive and legislative authorities, ensuring the objectivity and protection of human rights. The European Court of Human Rights has developed clear criteria for assessing the independence of judges under Article 6. These standards include strict requirements for the procedure for appointing judges, the duration of their powers and the presence of guarantees against external pressure. In the article, the author attempted to systematize and summarize the selected case law of the European Court of Human Rights regarding this issue. In addition, the author summarized the relevant opinions of the Consultative Council of European Judges in the context of standards of judicial independence.

**Redaksiyaya daxilolma tarixi: 07.07.2026**
**Təkrar işlənməyə göndərilmə tarixi: 28.07.2026**
**Çapa qəbul olunma tarixi: 29.07.2026**